2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaş Füzuli Ömərovun və digərlərinin 25 dekabr 2009-cu il tarixli 109 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar 51 saylı Qusar seçki dairəsi üzrə Şirvanovka bələdiyyəsinin üzvlüyünə namizədlər Fizuli Ömərov, Məhsim Məhsimov, Tofiq Əzizov, Şahmirzə Ağamirzəyev, Azər Mərdanov və Saruxan Badamov Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına teleqramla müraciət edərək, adı çəkilən bələdiyyəyə seçkilər zamanı qanun pozuntularına yol verildiyini, dairə seçki komissiyasının isə onların müraciəti ilə bağlı qanunsuz hərəkətsizlik etdiyini bildirərək, qanunla müəyyən edilmiş qaydada tədbirlər görülməsini xahiş etmişlər.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimata uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının nəzdində ekspert qrupunun üzvü tərəfindən araşdırılaraq bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Mərkəzi Seçki Komissiyası, müraciətin tam, hərtərəfli, obyektiv və qərəzsiz araşdırılması məqsədilə, seçki qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada araşdırma müddətinin uzadılması haqqında qərar qəbul etmişdir.

Araşdırma nəticəsində əldə olunan sübutlardan görünür ki, 51 saylı Quba-Qusar seçki dairəsinin dairə seçki komissiyası yuxarıda göstərilən şəxslərin müraciəti seçki qanunvericiliyinə uyğun qeydə alınaraq, ekspert qrupunun üzvü tərəfindən araşdırılmış, bununla bağlı müvafiq rəy verilmişdir. Aparılmış araşdırma nəticəsində 51 saylı Qusar seçki dairəsinin 55 saylı Şirvanovka kənd seçki məntəqəsində məntəqə seçki komissiyası üzvlərindən, müvafiq bələdiyyə üzvlüyünə seçilməmiş namizədlərdən, müşahidəçilərdən və digər seçki subyektlərindən izahatlar alınmış və həmin izahatlarla müraciətdə göstərilmiş pozuntu halları öz təsdiqini tapmamışdır. Bunun əsasında 51 saylı Qusar seçki dairəsinin dairə seçki komissiyası 3 yanvar 2009-cu il tarixdə şikayətin təmin edilməməsi haqqında qərar verərək, onu qanunla müəyyən edilmiş qaydada ictimailəşdirmiş və qərarın surətinin maraqlı tərəflərə çatdırılması üçün müvafiq tədbirlər görmüşdür.

Qeyd edilənlərdən göründüyü kimi, müraciət əsassız hesab edilərək təmin edilməməlidir.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimatın" 1, 2, 4, 6 və 7-ci bəndlərinə əsasən

q ə r a r a a l ı r :

1. Vətəndaş Füzuli Ömərovun və digərlərinin 25 dekabr 2009-cu il tarixli 109 saylı müraciəti əsaslı olmadığından təmin edilməsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib	Natiq Məmmədov
Üzvlər	Fuad Cavadov
	Ramiz İbrahimov
	Validə Kazımova
	Qabil Orucov
	Tofiq Həsənov
	İlham Məmmədov
	Nizami Nadirov
	Azər Tağıyev
	Tamam Cəfərova
	Rövşən İsmayılov
	Oktay Hümbətli